**“Şagird-məzun” dövlət elektron məlumat sisteminə 2022/2023-cü tədris ilində ümumtəhsil müəssisələrinin şagirdləri haqqında məlumatların daxil edilməsi və yekun attestasiyanın aparılması ilə əlaqədar regional təhsil idarələri, rayon (şəhər) təhsil sektorları və ümumtəhsil müəssisələri tərəfindən yerinə yetiriləcək işlər üzrə Dövlət İmtahan Mərkəzinin**

**T Ə Q V İ M   P L A N I**

| № | Yerinə yetiriləcək işlər | Tarix | |
|---|---|---|---|
| | | Ümumtəhsil məktəbləri | Peşə liseyləri |
| 1 | Ümumtəhsil müəssisələrinin sinifləri barədə məlumatların (sinif, sinfin indeksi, bölmə, say, təmayül, növbə, dərs günlərinin sayı, əsas xarici dil) “Şagird-məzun” sisteminə daxil edilməsi. | 01.11.2022-30.11.2022 | 01.11.2022-30.11.2022 |
| 2 | Təhsil müəssisələri və şagirdlər haqqında “Şagird-məzun” sistemində mövcud olan məlumatların dəqiqliyinin və tamlığının təhsil müəssisələrinin əlaqələndiriciləri tərəfindən yoxlanılması və zəruri hallarda müvafiq düzəlişlərin aparılması. | 01.11.2022-tədris ilinin sonunadək | 01.11.2022-tədris ilinin sonunadək |
| 3 | Ümumtəhsil müəssisələrində buraxılış sinfi olmayan şagirdlərin fərdi və təhsilə aid məlumatlarının, o cümlədən əvvəlki və cari tədris ilinin illik qiymətlərinin təhsil müəssisələrinin əlaqələndiriciləri tərəfindən “Şagird-məzun” sisteminə daxil edilməsi və zəruri hallarda mövcud məlumatlarında müvafiq düzəlişlərin aparılması. | 01.11.2022-tədris ilinin sonunadək | 01.11.2022-tədris ilinin sonunadək |
| 4 | Buraxılış sinfi şagirdlərinin fərdi və təhsilə aid məlumatlarının, həmçinin, əvvəlki tədris ili üzrə illik qiymətlərinin təhsil müəssisələrinin əlaqələndiriciləri tərəfindən “Şagird-məzun” sisteminə daxil edilməsi, mövcud məlumatlarının yoxlanılması, zəruri hallarda müvafiq düzəlişlərin aparılması. Məlumatların təsdiq edilməsi (**ilkin təsdiq**). | 01.11.2022-31.01.2023 | 01.11.2022-31.01.2023 |

| № | Yerinə yetiriləcək işlər | Tarix | |
|---|---|---|---|
| | | **Ümumtəhsil məktəbləri** | **Peşə liseyləri** |
| 5 | Elm və Təhsil Nazirliyi tərəfindən yaradılan psixoloji-tibbi-pedaqoji komissiyaların qərarı əsasında buraxılış imtahanlarından azad edilməli olan sağlamlıq imkanları məhdud buraxılış sinfi şagirdlərinin siyahısının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsi. | 01.12.2022-31.01.2023 | 01.12.2022-31.01.2023 |
| 6 | Buraxılış sinfi şagirdlərinin cari tədris ilinə aid illik qiymətlərinin təhsil müəssisələrinin əlaqələndiriciləri tərəfindən "Şagird-məzun" sisteminə daxil edilərək təsdiq edilməsi **(yekun təsdiq).** | 01.06.2023-30.06.2023 | 12.02.2023-12.03.2023 |
| 7 | Ümumi orta və ya tam orta təhsil səviyyəsi üzrə eksternat qaydasında təhsil sənədi almaq üçün müraciət etmiş şəxslərin təhsil müəssisəsində yaradılan xüsusi komissiya tərəfindən verilmiş qiymətlərinin "Şagird-məzun" sisteminə daxil edilərək təsdiq edilməsi. | 01.11.2022-31.01.2023 | Şamil edilmir |
| 8 | Ümumi orta və ya tam orta təhsil səviyyəsi üzrə 2016/2017-ci tədris ili və sonrakı tədris illərinin buraxılış imtahanlarında iştirak etmədiyi üçün təhsil sənədi ala bilməmiş şəxslərin buraxılış imtahanlarında iştirak edərək dövlət nümunəli təhsil sənədi əldə etməsi məqsədilə fərdi və təhsilə aid məlumatlarının təhsil müəssisəsi əlaqələndiriciləri tərəfindən "Şagird-məzun" sisteminə daxil edilərək təsdiq edilməsi. | 01.11.2022-31.01.2023 | 01.11.2022-31.01.2023 |
| 9 | Əvvəlki illərdə ümumi orta və ya tam orta təhsil səviyyəsini başa vurmuş, lakin illik qiymətlərində "2" olduğu üçün yekun attestasiyaya buraxılmamış şəxslərin təhsil müəssisəsindəki **xüsusi komissiyada qiymətləndirmə aparılmadan** buraxılış imtahanlarında iştirak edərək dövlət nümunəli təhsil sənədi əldə etməsi məqsədilə fərdi və təhsilə aid məlumatlarının "Şagird-məzun" sisteminə daxil edilərək təsdiq edilməsi. | 01.11.2022-31.01.2023 | 01.11.2022-31.01.2023 |

| № | Yerinə yetiriləcək işlər | Tarix | |
|---|---|---|---|
| | | **Ümumtəhsil məktəbləri** | **Ümumtəhsil məktəbləri** |
| 10 | Ümumi orta və ya tam orta təhsil səviyyələrini 2016/2017-ci tədris ilindən əvvəlki illərdə başa vurmuş, lakin buraxılış imtahanında iştirak etməmiş və ya buraxılış imtahanında ən azı bir fəndən “2” almış şəxslərin təhsil müəssisəsindəki **xüsusi komissiyada qiymətləndirmə aparılmadan** dövlət nümunəli təhsil sənədi əldə etməsi məqsədilə fərdi və təhsilə aid məlumatlarının təhsil müəssisələri tərəfindən “Şagird-məzun” sisteminə daxil edilərək təsdiq edilməsi və bu barədə Dövlət İmtahan Mərkəzinə rəsmi müraciət edilməsi. | tədris ili ərzində | tədris ili ərzində |
| 11 | Təhsil müəssisələri tərəfindən Dövlət İmtahan Mərkəzinin internet saytında imtahana buraxılış vərəqlərinin yerləşdirilməsi barədə şagirdlərin məlumatlandırılması, zəruri hallarda isə buraxılış vərəqlərinin çap olunması və şagirdlərə təqdim edilməsi. | Buraxılış vərəqlərinin internetdə yerləşdirildiyi gündən - imtahan gününədək | Buraxılış vərəqlərinin internetdə yerləşdirildiyi gündən - imtahan gününədək |
| 12 | Dövlət İmtahan Mərkəzi tərəfindən “Şagird-məzun” sistemində qeyd edilmiş buraxılış imtahanı nəticələrinin və yekun qiymətlərin təhsil müəssisələri tərəfindən dövlət nümunəli təhsil sənədinə yazılması. | 10.07.2023-15.09.2023 | 10.04.2023-15.09.2023 |
| 13 | Hər bir məzuna verilmiş dövlət nümunəli təhsil sənədinin seriyasının, nömrəsinin, verilmə tarixinin təhsil müəssisələri tərəfindən “Şagird-məzun” sistemində qeyd edilməsi və təhsil müəssisəsini medalla bitirən şagirdlər haqqında Dövlət İmtahan Mərkəzinə rəsmi məlumat verilməsi. | 10.07.2023-15.09.2023 | 10.04.2023-15.09.2023 |
| 14 | Ümumi və ya tam orta təhsil səviyyəsində buraxılış imtahanında üzürlü səbəbdən iştirak etməmiş şagirdlərin növbəti imtahanda iştirak etməsi üçün müvafiq ərizələrinin Dövlət İmtahan Mərkəzinə və ya Dövlət İmtahan Mərkəzinin regional bölmələrinə təqdim edilməsi. | Növbəti imtahanın keçiriləcəyi tarixə 10 gün qalmışadək | Növbəti imtahanın keçiriləcəyi tarixə 10 gün qalmışadək |